# Qiyamət günü bir insan gətirilib oda atılacaq, bağırsaqları qarnından çıxacaq və o, eşşəyin dəyirman daşının ətrafında fırlandığı kimi onların ətrafında fırlanacaq

Usamə bin Zeyddən (Allah ondan razı olsun) rəvayət edilir ki, ona belə deyildi: “Osmanın yanına gedib onunla danışmayacaqsanmı?” O dedi: "Siz elə düşünürsünüz ki, mən onunla danışdığım hər şeyi sizə eşitdirirəm (söyləyirəm)? Allaha and olsun ki, açmaq istəmədiyim məsələni ilk açanın özüm olmağımı istəmədiyim üçün onunla öz aramda danışdım və Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) bu sözlərini eşitdikdən sonra mənim rəhbərim olan heç kəsə - "O, insanların ən xeyirlisidir" sözünü söyləmirəm: "Qiyamət günü bir insan gətirilib oda atılacaq, bağırsaqları qarnından çıxacaq və o, eşşəyin dəyirman daşının ətrafında fırlandığı kimi onların ətrafında fırlanacaq və cəhənnəm əhli onun ətrafında toplanaraq deyəcəklər: Ey filankəs, sənə nə oldu? Sən xeyiri əmr edib, pislikdən çəkindirmirdinmi? O, deyəcək: Bəli, mən yaxşı işlər görməyi əmr edirdim, amma onu özüm etmirdim, pis əməllərdən çəkindirirdim, lakin özüm onu edirdim".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Usamə bin Zeydə (Allah ondan razı olsun) deyildi: Osman ibn Affanın (Allah ondan razı olsun) yanına getmirsənmi, onunla danışıb camaat arasında baş verən fitnəni söndürməyə çalışasan? O, isə onlara bildirdi ki, məsləhət gərəyi və fitnə oyatmamaq üçün onunla gizli danışıb. O, demək istəyirdi ki, insanların qarşısında hökmdarları açıq şəkildə tənqid etmək istəmir ki, insanlar xəlifəyə qarşı həyasızlıq etməyə başlamasınlar və bu, fitnə və şər qapısıdır və o, bu qapını birinci açan kəs olmaq istəmirdi. Sonra Usamə (Allah ondan razı olsun) deyir ki, o, rəhbərlərə gizlində nəsihət edir və əmir olsa belə, heç kimə yaltaqlıq etmir, heç kimi, yaltaqlanaraq üzünə yalan sözlərlə tərifləmir. Bu da, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) bu sözlərini eşitdikdən sonra belə olmuşdur: Bir insan Qiyamət günü gətirilib Cəhənnəmə atılacaq və bağırsaqları istinin və əzabın şiddətindən tez bir zamanda qarnından çıxacaq və o, dəyirman daşının ətrafında fırlanan eşşək kimi cəhənnəm odunda bağırsaqları ilə bu vəziyyətdə fırlanacaq və cəhənnəm əhli onun ətrafına bir dairə şəklində toplanacaq və ondan soruşacaqlar: Ey filankəs, məgər sən yaxşı işlər görməyi əmr edib, pis əməllərdən çəkindirmirdinmi?! O, deyəcək: Mən yaxşı işləri əmr edib, özüm isə onu etmirdim, pis işlərdən çəkindirib, özüm də onu edirdim.

النجاة الخيرية
ALNAJAT CHARITY

لجنة الدعوة الإلكترونية
EDC
E-Da'wah Committee